# İNTER – AUDİT AUDİTOR TƏŞKİLATI

VÖEN 1500596971
Audit Lisenziya № AS/317, 27.02.2012-ci il tarixli
Ünvan: Bakı şəhəri, Nizami küçəsi 11.
Telefon: (012) 4923184, (050) 2154992


## Müstəqil Auditor Hesabatı

"Azərbaycan Sənaye Sığorta" Açıq Səhmdar Cəmiyyətinin
Səhmdarlarına və İdarə Heyətinə

Biz «Azərbaycan Sənaye Sığorta» Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2014-cü il tarixinə maliyyə vəziyyəti, mənfəət və zərər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardıq.
Cəmiyyətin rəhbərliyi göstərilən maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.
Bizim vəzifəmiz isə həmin maliyyə hesabatları üzrə apardığımız auditə əsaslanaraq rəyin bildirilməsidir. Audit beynəlxalq audit standartlarına uyğun olaraq aparılmışdır. Həmin standartlara uyğun olaraq, bizdən auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə əmin olacaq tərzdə həyata keçirmək tələb olunur. Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlanan məlumatı dəstəkləyən sübutun test əsasında yoxlanılması daxildir. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir. Biz inanırıq ki, apardığımız audit rəy bildirilməsi üçün kifayət qədər əsas verir.

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2014-cü il tarixinə cəmiyyətin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti üzrə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

**"İNTER - AUDİT" Auditor Təşkilatı**

**Auditor:** **Ə.B.Bağırov**

**30 mart 2015-ci il**
Bakı, Azərbaycan Respublikası